İPƏK YOLU, No.4, 2022, səh.123-131

# HÜSEYN BAYKARA: GÖRKƏMLİ ŞƏXSİYYƏTİN TARİXÇİLİK FƏALİYYƏTİ HAQQINDA BƏZİ QEYDLƏR

**Vaqif Hacıyev**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Bakı, Azərbaycan
e-mail: vagif.haciyev@sport.edu.az

**Xülasə.** Təqdim olunan məqalə Azərbaycan siyasi mühacirətinin görkəmli nümayəndəsi Hüseyn Baykaraya və onun əsərlərinə həsr edilimişdir. Məqalədə Hüseyn Baykaranın əsərləri əsasında XIX və XX əsr (Rusiya istilası və Sovet işğalının mahiyyəti) Azərbaycan tarixi təhlil olunur və onun yaradıcılığı müasir tarixşunaslığımızın ən mühüm tərkib hissələrindən biri kimi təqdim olunur.

**Açar sözlər:** Hüseyn Baykara, istiqlal mübarizəsi, siyasi mühacirət, yeniləşmə hərəkatı, qırmızı terror.

## HUSEYN BAYKARA: SOME NOTES ON THE HISTORIOGRAPHIC ACTIVITY OF AN OUTSTANDING PERSONALITY

**Vagif Hacıyev**
*Azerbaijan State Academy of Physical Education and Sport, Baku, Azerbaijan*

**Abstract.** The paper is devoted to the prominent representative of the Azerbaijani political emigration Hussein Baykara and his works. The paper analyzes the history of Azerbaijan in the 19th and 20th centuries (the Russian invasion and the essence of the Soviet occupation) based on the works of Huseyn Baykar and his work is presented as one of the most important components of our modern historiography.
**Keywords.** Huseyn Baykara, independence struggle, political emigration, renewal movement, red terror.

## ГУСЕЙН БАЙКАРА: ЗАМЕТКИ ОБ ИСТОРИОГРАФИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ВЫДАЮЩЕЙСЯ ЛИЧНОСТИ

**Вагиф Гаджиев**
*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта, Баку, Азербайджан*

**Резюме.** Представленная статья посвящена видному представителю азербайджанской политической эмиграции Гусейну Байкаре и его произведениям. В статье анализируется история Азербайджана XIX и XX веков (российское вторжение и сущность советской оккупации) на основе произведений Гусейна Байкара, и его творчество представлено как одна из важнейших составляющих нашей современная историография.
**Ключевые слова.** Гусейн Байкара, борьба за независимость, политическая эмиграция, обновление национальных движений, красный террор.

XX əsrin 20-ci illəri tariximizin ən faciəli dövrlərindən biri sayılır. Təqdim olunan məqalə bolşevik siyasi terrorunun qurbanı və hələ sovet işğalından əvvəl olan mart soyqırımının canlı şahidi, sonralar ilk tədqiqatçısı olmuş Azərbaycanın görkəmli mühacir tarixçisi Hüseyn Baykaraya həsr olunmuşdur. 1904-cü ildə Şuşada dünyaya göz açmış olduqca istedadlı, gözəl hafizəyə malik, vətənpərvər şəxsiyyət olan Qara Hüseynbəyli (Hüseyn Baykara) yazdığı əsərlər müstəqil düşüncə və analitik yanaşma baxımından “milli ölüm elmi”nə çevrilmiş sovet tarxşünaslığından ciddi fərqlənir.Onun yazdığı tarix təsvir deyil, analitik təhlilə söykənir və bu baxımdan tarixi araşdırmaq istəyən istənilən Azərbaycan

tarixçisi üçün nümunə ola bilər. Peşəkar hüquqşünas olan Hüseyn Baykaranın elmi irsinə müraciət etməyimiz təsdüfi deyildir, belə ki, Türkiyədə yazdığı "XIX əsrdə Azərbaycanda yeniləşmə hərəkatı", "Azərbaycan istiqlal mübarizəsi tarixi" və digər əsərləri siyasi mühacirətin görkəmli nümayəndələrinin- C.Zeynaloğlu, Ə.Ağaoğlu, M.B.Məmmədzadə, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlunun universal yaradıcılıqları ilə eyni sırada yer alsa da, hələ də bizim çağdaş elmi araşdırmalarda, ümumiləşdirilmiş Azərbaycan tarixi dərsliklərində qənaətbəxş səviyyədə öyrənilməməmiş, tədqiqata cəlb edilməmişdir.

Tarixi şəxsiyyətlərimiz bilərəkdən unutdurmaq üçün sovet dövləti illərlə AXC-ni, onun qurucularını, istiqlal aşiqlərini xalqın yaddaşından silmək üçün məqsədyönlü siyasət yürütmüşdür. Bu baxımdan Cümhuriyyətimiz və onun qurucuları haqqında tarixi həqiqətləri tam çılpaqlığı ilə yazan, SSRİ-nin yırtıcı mahiyyətini olduğu kimi öz əsərlərində əks etdirən H.Baykaranın həyatı və yaradıcılığı istisna təşkil etmir. H.Baykaranın "Azərbaycanın istiqlal mübarizəsi tarixi" əsərini 1992-ci ildə Azərbayca dilinə çevirən E. Əbülhəsənli müəllifə həsr etdiyi qısa məqaləsində yazır: "Beləliklə, qanlı qırğından sonra, hakimiyyətə gəlmiş kommunistlərin dövründə yüzlərlə ziyalı haqsız təqiblərə məruz qalmış və döğma yurdunu tərk etməyə məcbur olmuşlar. Əhməd bəy Ağaoğlu, Əhməd Cəfəroğlu, Məmməd Əmin Rəsulzadə, Almaz İldırım, Hüseyn Baykara, Mirzəbala Məmmədzadə, Əbdülvahab Yurdsevər və başqaları Vətən torpağından uzaqlarda yaşayıb-yaratmışdılar, ürəklərində gəzdirmişlər Azərbaycan odunu, Azərbaycan həsrətini. Uzaqlarda yaşasalar da, ancaq Vətənsiz yaşamayıblar" [1, s.4]. Ürəklərində qövr eləyən qürbət duyğusu, qürbət ağısı şeirlərində, əsərlərinə süzülüb axıb. Çox təəsüflər olsun ki, uzun müddət bu istiqlal mübarizlərinin adlarını unutduq, onların Azərbaycanın azadlığı uğrunda apardıqları mübarizəyə göz yumduq. Hətta adlarının çəkilməsini belə qadağan etdik. Onlara vətənsevər olduqları halda "vətən xaini" damğasını vurduq. Tanrının rəhminə min şükürlər olsun ki, gec də olsa, öz yanlış hərəkətlərimizi anladıq, haqq yoluna qayıtdıq, onlara özlərinin qazandığı dəyəri verdik. Son illər unudulmuş ziyalıların həyatı və yaradıcılığı mətbuatda, televiziyada və radioda tez-tez işıqlandırılır. Belə unudulmuş ziyalılardan biri də, Hüseyn Baykaradır. Əsl adı Qara, soyadı isə Hüseynbəylidir.Türkiyədə Hüseyn Baykara adı ilə çox məşhurdur". O, 1904-cü ildə Azərbaycanın dilbər güşəsi olan Şuşada anadan olmuşdur.Hüseyn Baykara 1927-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini oxuyurdu. Onun qardaşı Surxay həmin illərdə Azərbaycan Pedaqoji İnstitutunu bitirib. Qazax gimnaziyasında dərs deyirdi (qeyd etmək lazımdır ki, Surxay Sibirə sürgün edilmiş, 1955-ci ildə Qazaxıstanda həlak olmuşdur). Hüseyn Baykara universitetdə oxuduğu illərdə fəallığı ilə tələbə yoldaşlarından fərqlənirdi. O, Azərbaycanın müstəqilliyi və azadlığı barədə tələbələr qarşısında tez-tez çıxışlar edirdi. Təbii ki, onun bu çıxışları bolşeviklərin, rusların, buyruq qulu olan adamların xoşuna gəlmir və onu izləməyə başlayırlar. Çünki Hüseyn Baykara əvvəllər də mübarizə apardığı amallara görə həbs edilmişdir. Özünün yazdığı kimi Bakının Staropoliseyski prospektindəki həbsxanada Azərbaycanın istiqlal şairi Əhməd Cavad ilə bir yerdə arkadaşlıq etmişdilər.Təqiblərə məruz

qalan H.Baykara Azərbaycanı tərk etməyə məcbur olur. 1927-ci ilin baharında əvvəlcə İrana, sonra isə Türkiyəyə gəlir" [2, s.7]. O, Ankara Universitetinin hüquq fakültəsini bitirmiş və bundan sonra (Türkiyə həyatı nəzərdə tutulur) həyatının hər bir anını doğma yurdu Azərbaycanı qətrə-qətrə öyrənməyə, əsarət altında olan yurdunda sovetlər tərəfindən icad edilən dürlü-dürlü saxta ideyaların gerçək olmadığını gösrərmək üçün həqiqətləri yazmağa həsr etmişdir". Hüseyn Baykara Azərbaycanın azadlıq hərəkatından bəhs edən bir neçə fundamental elmi əsərin müəllifidir. Onlardan 1966-cı ildə nəşr olunan "Azərbaycanda Yeniləşmə Hərəkatları XIX əsr", "İran inqilabı və azadlıq hərəkatı", "Azərbaycan mədəniyyət tarixi" və 1975-ci ildə nəşr olunmuş "Azərbaycanın istiqlal mübarizəsi tarixi " əsərini qeyd etmək olar. 1966-cı ildə nəşr olunmuş "Azərbaycanda yeniləşmə hərəkatı XIX əsr" kitabında Rusiya istilasının və müstəmləkə sisteminin əsl mahiyyətini açmış, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını (Cümhuriyyətə aparan yolu) XIX-də Azərbaycanda millət və dövlət yaratma hərəkatının (yeniləşmə hərəkatı kontekstində) görkəmli nümayəndələrinin mübarizəsinin məntiqi nəticəsi hesab etmişdir." Hüseyn Baykaranın ilk monoqrafik əsərindən sonuncu tezisinə, məqaləsinə qədər bütün yazılarını oxusaq bir cəhətin dominant təşkil etdiyinin şahidi olarıq: O, Azərbaycanda istiqlal savaşının tarixini yazmış,ideyaların milli ideologiya bazasında tədriclə necə formalaşması prosesini izləmiş, bu savaşda təkamülün (milli istiqlal məfkurəsinin)morfologiyasını açıq-aydın şəkildə və analitik yöndə izah etməyə çalışmışdır" [2, s.7] Azərbaycan renesansının banisi kimi A.Bakıxanovu görən H.Baykara milli azadlıqın ilk işartısının Qasım bəy Zakirdə təcəssüm etdiyini əyani sübutlarla təqdim edir. H.Baykara yazır ki, "Azərbaycan mədəniyyəti tarixi" ilə "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitablarım Azərbaycanın azadlıq mübarizəsinin əlifbasıdır. Sonra müəllif davam edərək yazır ki, "gələcəkdə Azərbaycanda bu mövzuda daha samballı əsərlər yazılacaqdır. Azərbaycan xalqının keçmişini, azadlıq mübarizəsini öyrənənləri zaman özü yetişdirəcəkdir. O halda gələcək nəsil bu mübarizəni necə və haradan öyrənəcəkdir? Beləliklə bu kitabları mənə yazdıran səbəblər bunlardır"[1, s.5].

Müəllifin özünün yazdığı kimi "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitabı onun səkkiz illik zəhmətinin məhsuludur. O xəstə olmasına baxmayaraq, kitabı tamamlamış və gənc nəsilə ərməğan etmişdir. Amma kitabda bəzi yanlışlıqlar da vardır. Bəzi coğrafi adlar, tarixi adların illəri dəqiq verilməmişdir. Hər halda müəllifi başa düşmək olar, çünki keçmiş Sovetlər İttifaqı "dəmir pərdəli" qapalı ölkə olmuşdur. Bunun nəticəsində də Baykara lazım olan sənədləri əldə edə bilməmişdir. Müəllif özü də etiraf edir ki, bu kitabda bəzi yalnışlıqlar vardır. Bütün bunlarla yanaşı kitabdan indiyə kimi bizə məlum olmayan çox şey əldə edəcəksiniz. Ömrünün sonuna qədər Azərbaycanın azadlığı uğrunda mübarizə aparan, vətənə qovuşmaq arzusu ilə yaşayan azadlıq aşiqi Hüseyn Baykara 1984-cü ildə beyninə qan sızması nəticəsində vəfat etmişdir. H.Baykara ölümündən qabaq yazdığı bir bayatıda deyirdi:

Qürbət çəkilməyən acıdır,
Vətən insanların tacıdır.
Bir gün xalqım məni anacaq,

Qürbətdə ölməyimə yanacaq.

Tərəfimizdən təqdim edilən məqalə H.Baykaranın əsasən "Azərbaycan istiqlal mübarizəsi tarixi" [1] və "XIX əsrdə Azərbaycanda yeniləşmə hərəkatı" [2] əsərlərinin öyrənilməsinə həsr olunmuşdur. Belə ki, bir məqalədə onun bütün yaradıcılığını araşdırmaq qeyri-mümkündür və bu istiqamətdə yəqin ki, gələcəkdə tədqiqatlar aparılacaqdır. Böyük şəxsiyyət Hüseyn Baykaranın bütün kitabları şəhidlərmizin əziz ruhuna həsr olunmuşdur. Görkəmli tarixçi ön sözdə yazır: "Öz müasirləri ilə birlikdə mübarizədə iştirak edən bir istiqlalçı üçün öz xalqının köləlik tarixini yazmaq olduqca çətindir. Bununla belə o, xalqının müstəqillik əldə edəcəyinə əldə edəcəyinə ürəkdən inanır.

Bu kitabı yazıb başa çatdımaq məndən çox böyük cəsarət və dözüm tələb edirdi. Çünki həm yaşım, həm də səhhətim buna imkan vermirdi. Kitabda olan bəzi nöqsanlar üçün heç kimi qınamıram. Çünki mövzu Türkiyə mətbuat aləminə qədər yabançıdır ki ...

Kitabımı bitirərkən Azərbaycan azadlıq mübarizəsinin məlum olan və olmayan əziz şəhidlərinə ulu tanrıdan daha şox rəhmətlər arzulayıram. Əziz və müqəddəs şəhidlər, mübarizəmiz bundan sonra da davam edəcəkdir-H.Baykara Şişli-İstanbul 28.05.1975" [1, s.12]. Oxucu diqətlə kitabın ön sözünün yazılma tarixinə baxanda əsərin Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə həsr olunduğunun şahidi olur. O, Çar Rusiyası və Sovet Rusiyası dövrünü müqayisə edərək belə nəticəyə gəlir ki, bunlar mahiyyət etibarı ilə eyni köləlik sistemidir. SSRİ-nin dağılacağını XX əsrin 60-70-ci illərdə qeyd edən H.Baykara, bu tarixi hadisənin nə vaxt baş verəcəyini zamanın öhdəsinə buraxır. Hətta kommunistlərin içində də bu quruluşdan narazı olanlar vardır. "Artıq xalq, əsasən gənclər kommunizmə inanmırlar. Leninin vəd etdiyi kommunist cənnəti iflasa uğramışdır. Bu gün Sovet İttifaqında yaşayan 250 milyon əhalinin hüquqları Moskvanın Kreml sarayında oturan şovinistlər tərəfindən kobudcasına pozulmaqdadır. Görəsən bu vəziyyət nə vaxta qədər davam edəcək? Bax, əsl məsələ budur... Hər zaman söylədiyim və yazdığım kimi rus inqilabı bitməmişdir [1, s.7].

Rus inqilabının səhnəsində yenə də bir neçə əhəmiyyətli seans oynanılacaqdır [1, s.12]. Kitabın "Xanlıq, çarlıq və Milli istiqlal dövründə Azərbaycanda torpaq rejiminə ümumi baxış" bölümündə müəllif xanlıqlar və Rusiya kolonial rejimini müqayisə edərək, məhkəmə-hüquq, aqrar və siyasi idarəçiliyin fərqini belə izah edir: Rus tarixçisi İvanenko Azərbaycanda xanlıqlar dövründə olan mütərəqqi müsəlman verglərindən yazır. Sonra isə kinayəli bir tərzdə komendantlarla xanlar arasındakı fərqi izah edir: "Xanlıq dövründə qadınlara bədən cəza verilməzdi. Rus komendantları kişilərlə birlikdə qadınları da qı Xanlıqların işğalından sonra yaradılmış əyalətlərdə "1829-cu ildə Cənubi Qafqazı təftiş etmək üçün göndərilən senatorların rəsmi raportlarında qeyd olunurdu: yüz minlərlə xalqın hüququ, namusu və mülkü komendantların kefinə tabedir. Xanlar dövründə əsasən,vergi toplananda və ya başqa mükəlləfiyyətlər istəniləndə mahaldakı adət və ənənə, ictimai vəziyyət və mülahizəlrə əməl olunduğu halda, komendantlar bu məsələlərdə kar və kordurlar. Həmin senatorlar Tiflisdən o dövrdə Rusiya imperiyasının ədliyyə naziri D.B. Daşkova

göndərdikləri raportda müsəlman əyalətlərindəki idarəçilik haqqında yazırdılar: ”Müsəlman vilayətlərindəki idarəyə gəlincə, burada idarə edənlərin zülmü ilə idarə olunanların məzlumluğu təsəvvür olunmaz dərəcədə faciəli şəkil almışdır. İnsan ləyaqəti tapdalanmış,ədalət tamamilə unudulmuş, qanunsuzluq, cinayət, qərəzçilik, rəislərin özbaşınalığı hökm sürür” [1, s.27]. İstibdad idarəsi yerləşən vilayətdə rus məhkəməsi öz əməlləri ilə hər cür ədalət duyğusunu təhqir edir. Bu məhkəmələr rus üsul-idarəsinə yenicə keçmiş olan yerli xalqın nəzərində sanki rus idarəsini gözdən salmaq üçün qurulmuşdur. Qeyd edək ki, xanlıqlar dövründə bəylər və xanların özü belə adət-ənənələrlə və şəriət məhkəməsi ilə hesablaşırdı. Milli-mənəvi dəyərlərimizə sayğı göstərilirdi. H.Baykara quldarlığın rus variantı olan təhkimçilik quruluşu və köləlik sisteminin Azərbaycana gətirilməsini ürək ağrısı ilə yazır. Rüşvətxorluq, süründürməçilik adi hala çevrilidi.Tarixdən bəlli olduğu kimi Azərbaycanda kəndlilər azad olub və bəylərin şəxsi asılılıqda olmamışdılar. Çünki şəriət buna imkan vermirdi. H.Baykara yazır: “Azərbaycanda xanlıq dövründə kəndli heç vaxt kölə olmamışdır. Bunu sübut etmək üçün rus mənbələrinə istinad etmək yerinə düşərdi. Senator Qan çara göndərdiyi raportda xalqın xalqın rus üsul-idarəsini razı olmadığını bildirərək yazırdı: “xalqın rus idarəsindən narazı qalmasına müəyyən ictimai səbəblər vardır. Bu da bəylərin (şübhəsiz, Rusiyaya satılmış “quru bəylər”dən söhbət gedir) komendantlıq idarəsi və rus hakimiyyətindən istifadə edərək Gürcüstanda olduğu kimi kəndliləri təhkimçi, qul halına salmaq təşəbbüsləridir. Halbuki, İslam dini belə vəziyyəti rədd edir, təhkimçilik Məhəmmədliyə ziddir.[2, s.29] Azərbaycanda kəndlilər müstəsna halda azadddırlar.” Tarixdə heç bir zaman Azərbaycan kəndlisi rus kəndlisi kimi heyvan sürüsü halında qırmancla bazara satılmağa aparılmamış, səbəbsiz yerə öldürülməmiş, ailəsinə və namusuna toxunulmamışdır” [2, s.29]. Görkəmli tarixçi öz əsərlərində ədəbiyyat tariximizə də geniş yer vermişdir. “Azərbaycan mədəniyyət tarixi” əsəri buna örnəkdir.

H.Baykara azadlıq uğurunda mücadilə aparan Lermontovun Almas İldırım tərəfindən türk dilinə tərcümə edilən “Buludlar” şerini təqdim edərək yazır ki, “şair rus torpaqlarının azadlıq və insanlıq baxımından bəhrəsiz olduğunu, Ağ Şimalın şeytanların yuvası olduğunu həssas şair ruhuna yaxın olan dildə söyləyir”.

Müəllif Azərbaycanın cənubuna və Muğanda olan ədəbi-mədəni mühit haqqında da məlumat verir. Qeyd etmək lazımdır ki, Muğan və bütövlükdə Azərbaycan tarixinin araşdırılmasındakı elmi əhəmiyyətini nəzərə alıb mühacir tarixçimizin əsərindən bəzi parçaları oxuculara təqdim edirik. Kitabın əvvəlində qeyd olunduğu kimi, “1) H.Baykara sadəcə tarix, xronologiya yazmırdı, o ideyaların tarixini yazır, onlar arasındakı keçidlərin məntiqini araşdırırdı; 2) H.Baykara Azərbaycanşünaslıq sahəsində (mövcud tarixşünaslığmızda olan) mövcud olan boşluqları doldurur, mövcud və getdikcə daha böyük ərazini zəbt edən yanlışlıqları aradan qaldırırdı və 3) H.Baykara o dövr üçün Azərbaycanın yaxın tarixində baş verə hadisələrin əsl mahiyyətini həmin dövrdə meydana çıxmış şəxsiyyətlərin ğördükləri işin siyasi-ideoloji və mədəni mahiyyətini tam fərqli müstəvidə açmağa çalışırdı”. Etnik baxımdan bir bütöv olan Azərbaycanın İranın tabeliyində olan ərazilərində də (ədəbi-mədəni və təhsil

mühiti) vəziyyət Qafqaz Azərbaycanında olduğu kimi idi. Qafqaz Azərbaycanı ruslar tərəfindən işğal edildikdən sonra əslində bir bütöv olan iki ölkə arasında ədəbi, iqtisadi və ictimai baxımdan böyük fərqlər meydana gəlmişdir. Bu dövr İran Azərbaycanı (Cənubi Azərbaycanı) ədəbiyyatına nümunə kimi Seyid Əbülqasim Nəbatidən qısa olaraq bəhs edəcəyik. Arazın İran hissəsindəki Qaracadağ bölgəsində - Muğan düzündə Üşdibin kəndindən olan Nəbati hicri təqviminə görə XIII əsrdə yaşamış Azərbaycan türk şairidir. 1280-cı ildə yaşı 70-i adlayanda dünyasını dəyişmişdir. Hürufi təriqəti anlayışına uyğun mistik əsərlər yazdığı kimi heca vəznində sadə xalq dilində olan əsərləri var. Dövrünün təsəvüf ədəbiyyatının ustadlarındandır. H.Baykara da ədbiyyat tariximizi S.Mümtaz kimi yüksək səviyyədə araşdırmışdır.

Xanlıqlar və Rusiya istilası dövrünün müqayisəli təhlilini aparan H.Baykara "Azərbaycanda yeniləşmə hərəkatı XIX əsr" adlı əsərində yazır: "Azərbaycanın oyanışı, yeniləşməsi və şəxsiyyətləri haqqında oçerki yazmağa başlayarkən məni ən çox düşündürən məsələ Çar Rusiyasının işğalından əvvəl xanlıqlar dövründə Azərbaycanın mədəni, siyasi və iqtisadi vəziyyətinin nə qədər inkişaf etmiş olması idi. Buna görə də kitabda ən çox bu mövzuya yer verdim. Bəzi zümrələr belə hesab edirlər ki, Azərbaycanın hal-hazırkı mədəniyyəti, incəsənəti rusların əsəridir. Halbuki, ruslar Azərbaycanı işğal etdikləri dovrdə nəinki bugünkü Qərb düşüncəsində, hətta o dövrün Qərb düşüncəsinə görə də mədəni millət hesab edilmirdilər. I Pyotrun hakimiyyətindən sonra Rusiyada yalnız hərb sahəsində qərbləşmə özünü göstərirdi. Şərqdə qazandıqları qələbələri də məhz buna borcludurlar. Rusiyada quldarlıq (təhkimçilik sistemi nəzərdə tutulur) 1861-ci ildə II Aleksandrın fərmanı ilə ləğv edilmişdi. Öz vətəndaşları ilə qul kimi davranan rejim necə mədəni ola bilər, ya necə mədəni hesab oluna bilər? Xüsusilə də Çar Rusiyası rejimi dözülməz despotik və zülümkar rejim idi. Bu səbəbdən də Avropa ilə müqayisə ediləcək heç bir tərəfi yox idi.[1, s.9] Yeri gəlmişkən Rusiya istilasının fəlsəfəsinə Azərbaycan Xalq Cümhuriyyətininin banisi öz əsərlərində geniş yer vermidir.

"Bundan yüz sənə müqəddəm Rusiya çarizmi tərəfindən istiqlal və mövcudiyyətlərinə xatimə verilən Dərbənd, Quba, Lənkəran, Şəki, Şirvan, Bakı, Qarabağ, Gəncə, İrəvan və Naxçıvan xanları dəxi Azərbaycanlı türk hökmdarları idi" [4, s.13]. M.Ə.Rəsulzadə "Azərbaycan Cumhuriyyəti" əsərində Rusiya işğalının mahiyyətinə münasibət bildirərək qeyd edir ki, "Azərbaycan xanlıqları kəndi mənliklərini həqqilə dərk etmədən, kəndisini idrak etmiş milli bir sima göstərmədən tamamilə İran hərs və nüfuzi-mənəvisi altında ikən mövqelərini müasir bir ordu ilə gələn rusun qüvvət bazusuna tərk və qəzayə təslim oluyorlarsa da xəlq kəndinə məxsus ədəbiyyatı, şairləri, aşıq və dərvişləri ilə hüzn və məsərrətini, kəndi lisanı ilə, idrakı ilə bir vücud olduğunu sezdiriyordu" [4, s.16].

Tarixdən məlum olduğu kimi, xanlıqlardakı əhali yaşayan torpaqların bir hissəsi xəzinənin və sülalə üzvlərinin mülkiyyətində, digər hissəsi feodalların mülk və tiyul sahibliyində, bir hissəsi kənd icmasının kollektiv sahibliyi və istifadəsində, bir qismi dini

idarələrin vəqf fondunda, qalan hissəsi isə ayrı-ayrı təsərrüfata, malik kəndlilərin mülkiyyətində idi". Mənbələrdə göstərilir ki, xanlıqlar dövründə kəndlilərin ixtiyarında olan torpaqlar iki yerə bölünürdü: 1) kəndlilərə məxsus xüsusi torpaq sahəsi; 2) kənd icmasının kollektiv sahibliyində və istifadəsindəki torpaqlar. Bu bölgüyə əsasən kəndlilər torpaqdan fərdi və kollektiv (icma) qaydada istifadə edirdilər. İcmalarda birləşən və ya fərdi təsərrüfatlara malik xəzinə və sahibkar kəndliləri xan xəzinəsinin və feodalların xeyrinə istehsal etdikləri məhsulun yerli qaaydalar əsasında uzun müddət ərzində qərarlaşmış hissəsini (1/3-dən 1/10-dək) ödəyirdilər. Xanlıqlar dönəmində Azərbaycanda torpaq mülkiyyət münasibətləri şəriətlə müəyyən edilirdi. H. Baykara yazır: "Xanlıq dövründə torpaq rejimini Quran və onun qanunlarına uyğun olaraq təyin edirdi. Bu rejim Həzrəti Məhəmmədin "Torpaq ancaq onu dirildəcək kimsələrə məxsusdur" müddəasına əsaslanırdı. Türkcə, "torpaq əkənindir" mənasını verir. Quran torpağın Allaha məxsus olduğunu təsdiq edir. Təcrübədə, Allahı yer üzərində təmsil edən padşahlar, xanlar torpağın həqiqi sahibi olmuşlar" [1, s.28]. Rusiya işğalından sonra vəzyyət dəyişdi. Xanlıqları işğal edən Rusiya İmperiyası xanlara məxsus nə varsa hamısını Çarın mülkiyyəti elan etdi. Buna hüquqi don geyindirmək üçün islam qaydalarını əlində bayraq edərək, "şəriətə uyğun" olaraq Şimali Azərbaycan torpaqlarının "Allahı yer üzərində təmsil edən Rusiya Çarına" keçdiyini bəyan etdi. Azərbaycanda qurulan müstəmləkə rejimində mülkiyyət münasibətləri əsasən belə quruldu. İşğal prosesində "hərbi işğal rejimi" formasında yaradılan müstəmləkəçi orqanlar köhnə idarəçiliyi ləğv edilərək əyalətə çevrilmiş xanlıqlarda əsas diqqəti maliyyə-vergi sisteminin öyrənilməsinə və xəzinənin gəlir mənbələrinin üzə çıxarılmasına" yönəltmişdi.

Rusiyanın işğal prosesində və işğaldan sonrakı 100 ilə yaxın bir dövrdə iqtisadi-sümürgəçilik, maarif, din, mənfur köçürmə, inzibti idarəetmə, hüquq və məhkəmə siyasəti "Velikorus" şovinist ideologiyasına uyğun olaraq sistemli formada və dövlət səviyyəsində aparılırdı. Bu məsələyə münasibət bildirən M.Abdullayev yazır ki, Azərbaycanda rus müstəmləkəçiliyinin qanunsuzluqları və özbaşınalıqları haqda cild-cild kitablar yazmaq olar və bu baxımdan o dövrün, tariximizdə ola bilsin ki, analogiyası yoxdur və qismən Monqol işğalları dövrü ilə müqayisə edilə bilər. 1829-30-cu illərdə Cənubi Qafqazı təftiş etmək üçün göndərilən senator Meçnikov və Kutaysov yoxlamanın nəticəsini raportlarında belə bildirirdilər: "Yüz minlərlə xalqın huququ, namusu və mülkü komendantların kefinə tabedir. Xanlar dövründə əsasən, vergi toplananda və ya başqa mükəlləfiyyətlər istəniləndə mahaldakı adət və ənənə, ictimai vəziyyət və mulahizələrə əməl olunduğu halda, komendantlar bu məsələlərdə kar və kordurlar".

X.Xəlilli bununla bağlı yazır: "İçki və rus qadınları vasitəsi ilə milli əxlaqı pozmağa, xüsusilə bəyləri, ağaları xalqın gözündən salmağa xüsusi önəm verilirdi. Bu məqsədlə, Cəfərqulu xanı Simbirsk sürgünündən Peterburqa gətirib, bar və gecə klublarında ona meydan verməklə əxlaqını pozub xalqın gözündən salmağa çalışır. Lakin Cəfərqulu ağanın nəinki əxlaqı pozulmamış, əksinə o, rus siyasətinin incəliklərini mənimsəyərək həmvətən lərinə zadəgan zümrəsinin qorunması zərurətini dərk etdirməyə çalışmışdı. Rusiya boyunduruğunu

qəbul etməyən, azadlıq mücadiləsinə qalxmış Cavad xan, Şeyxəli xan kimi azadlıq mücahidləri, istilaçılara qarşı çıxan bəyzadələr, ruhanilər, ağalar, maaflar və sair təbəqənin nümayəndələri isə ya öldürülür ya da sürgünə göndərilirdi. Bu tarixi fakt işğal edilmiş Azərbaycanın bütün Şimal xanlıqlarına aid idi. Azərbaycan xanlıqlarının rus çarizmi tərəfindən hərbi-siyasi işğalının ilkin dövrlərində Rusiya dövlətinin burada yeritdiyi iqtisadi siyasətin əsas məqsədlərindən biri də yerli feodalların - bəy və ağaların özünün sosial-siyasi dayağına çevirmək idi. Azərbaycanda istilaçıların inamını qazanmayan, çarizmə xidmət göstərməyən yerli feodallar kəndliləri idarə etmək hüququndan məhrum edilir və siyasi repressiyaya məruz qalırdı. Bəylərin bir qismi isə Rusiyanın müstəmləkə siyasətininin icracısına çevrildilər. H.Baykara bu məsələyə özünəməxsus şəkildə münasibət bildirir: İşğal edilən Azərbaycanda rus idarəsinin istinad edə biləcəyi, ona sədaqətlə xidmət edəcək bir sinif yaratmaq lazım idi.Bu sinif isə torpaqlar üzərindəki idarə haqları əllərindən alınmış və əvəzində maaşları təmin olunmuş bəylər və ağalar ola bilərdi.General Paskeviç çar idarəsinin əsasını bu yolla möhkəmləndirməyi izah etdikdən sonra,Azərbaycanda bəy və ağalara mülkiyyət hüquqlarına görə torpaq ayırmaqla bir əsilzadə sinfi yaratmaq və onları rus müstəmləkəçiliyi ilə qırılmaz mənfəət telləri ilə bağlamaq lazım gəldiyini uzun bir raportla irəli sürdükdən sonra yazırdı:Xəyanət edən əsilzadə ailəsinin,təbii olaraq,ailə üzvlərindən biri xəyanət hadisəsi gözlədiyini əvvəlcədən xəbər verərsə,xəyanətkar əsilzadəyə mənsub olanəmlak və ərazinin yarısına sahib olur [1, s.28].

İşğalçılar xalqın inandıqlarını daxildən parçalayır və müxtəlif vasitələrlə nüfuzdan salırdılar. Bu tarixi faktla bağlı M.Ə.Rəsulzadə yazır: "Çarlıq yeni yerləşdiyi məmləkətdə istinad edə biləcəyi ictimayi bir zümrə hazırlayırdı. Kimlərdən təşkil olunmalı idi bu zümrə? Bu suala M.Ə. Rəsulzadə belə cavab verir: "Xanlıq dövründə qapı qulluğunda bulunub bəy adını alan zatlar rus ordusunun istədiyi bu zümrəni təşkil edəcəkdi...Çarizm xanların əlindən qəsb etdiyi hakimiyyəti özünə minnətdar etdiyi bəylərlə, bir az olsun, bölüşürdü" [4, s.10]. M.Ə. Rəsulzadə yeni ali zümrənin yaranış mexanizmini açıqlayır - "sırf rus intriqası ilə həyata gəlmiş və məhz buna görə də xalq içərisində, Cənubi Qafqazın başqa xalqlarından fərqli olaraq, onun nüfuzu yox dərəcəsində idi. Çarizmin yeritdiyi belə siyasət Azərbaycanda milli şüurun oyanış dövrünü xeyli uzatdı". Azərbaycan xalqı mənəvi bütövlüyünün qorunmasına xüsusi əhəmiyyət verir, onun rus imperiyası tərəfindən pozulmasına imkan vermirdi. Xalq rus dini məktəblərində təhsil almaqla yaradılan "mollaları" "dəfdər mollası", qeyri-zadəgan silkindən olan "bəyzadələri" "rus balası", rus idarələrinin arayışı ilə titul alan "bəyləri" "quru bəy" adlandırır, milli-mənəvi dəyərləri itirmiş bu adamlara inanmırdı. Tarixi reallıq bundan ibarətdir ki, Rusiya hakim dairələrinin uzunmüddətli müzakirələrindən sonra 1846-cı ilin dekabrında "ali müsəlman zümrəsi" statusu verdiyi bəy və ağaların Rusiya dövləti qarşısında bir sıra öhdəlikləri var idi ki, bunlardan da birincisi orduya çağırışa hazırlıqlı olmaları idi. Xalqın inandıqları (müsəlman aristokratiyasını) ali zümrənin nümayəndələrini daxildən parçalamaq məqsədilə 40-cı illərin "islahatları" həyata keçirildi. Əslində bu islahat

bütövlükdə xalqı daxildən parçalamaq məqsədi daşıyırdı. Məhz 1846-cı il islahatından sonra bəylər və kəndlilər arasında gələcək düşmənçiliyin bünövrəsi qoyuldu. "Azərbaycan kəndlisini Azərbaycan bəylərinə və ağalarına əzdirmək çar rusiyası üçün ən məqsədəuyğun idarə forması olduğu qərara alınmışdı. Beləliklə, vaxtilə əllərindən alınan torpaqlar üzərində bəylərin və ağaların mülkiyyət hüquqlarının yenidən tanınması və həmin torpaqlarda çalışan kəndlilərin rus mujiki kimi qul halına salınmasını nəzərdə tutan 1846-cı il 6 dekabr çar fərmanı verildi". Azərbaycan kəndliləri tarixən həmişə azad şəraitdə təsərrüfatları ilə məşğul olmuşdular. Tarixdə heç bir zaman Azərbaycan kəndlisi rus kəndlisi kimi heyvan sürüsü halında qırmancla bazara satılmaq üçün aparılmamış, səbəbsiz yerə öldürülməmiş, ailəsinə və namusuna təcavüz edilməmişdir [1, s.27]. Beləliklə, XIX əsrin 40-cı illərinə qədər çarizmin ali zümrəyə münasibəti qeyri müəyyən olmuş, onların hüquq və imtiyazlarının ləğv edilməsi, torpaqlarının müsadirəsinə dair əsasnamələr də verilmişdi. Hətta onlara birdəfəlik ödənc verilməsi şərtilə, Rusiyadan gətirilmə zadəganlarla əvəz edilməsinə dair dair fikirlər də səslənirdi.

## Ədəbiyyat


1. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992.
2. Baykara H. Azərbaycanda yeniləşmə hərəkatı. Bakı, 2018.
3. Bünydov Z. Qırmızı terror. Bakı, 1993.
4. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
5. Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995.
6. Boran Ə. Cümhuriyyətə gedən yol. Bakı, 2020.
7. İbişov S.Ə. Muğan (Cavad bölgəsi) əhalisi,tarixi coğrafiyası və toponimləri. Bakı, 2020.
8. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005.
9. Xəlilli X. Sovet tarixşünaslığı –milli ölüm elmi. Bakı, 2010.
10. Xəlilli X. Qarabağ etnomənəvi inkişaf tarixi. Bakı, 2006.